**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin 2018- ci il 16 may tarixli Ü-012 nömrəli əmri ilə təsdiq edilmiş**

# Azərbaycan Respublikasına idxal edilən konservlərə, kolbasalara və digər növ hazır ət məmulatlarına dair

## BAYTARLIQ TƏLƏBLƏRİ

Azərbaycan Respublikasına idxala məhsulun ixracata tədarükü haqqında ixracatçı ölkənin dövlət baytarlıq xidmətinin icazəsinə malik və onun daimi nəzarətində olan müəssisələrdə istehsal edilmiş, insanın istifadəsi üçün nəzərdə tutulmuş bütün növ heyvanlardan, quşlardan olan hazır ət məmulatlarına, əlavə məhsullara, piylərə və digər ət məmulatlarına icazə verilir.

Məhsulun istehsal edildiyi xammal kliniki cəhətdən sağlam heyvanlardan əldə olunmalı və ixracatçı ölkənin dövlət baytarlıq xidməti tərəfindən aparılmış baytarlıq-sanitariya ekspertizasından keçməlidir.

Mal və qoyun əti BEB-in “Beynəlxalq Sağlamlıq Məcəlləsi”nin tələblərinə uyğun olaraq, iribuynuzlu heyvanların süngərvari ensefalopatiyası və qoyunların skrepi xəstəliyinə görə qeyri-sağlam ölkələrdən gəlməməlidir. Ət və ət məhsulları istifadəsi zamanı gövşəyən heyvanların daxili orqanları və toxumalarnın istifadə olunduğu, heyvan mənşəli yemlərlə yemləndirilməmiş, habelə tərkibində gen mühəndisliyi üsulları və ya digər genetik cəhətdən modifikasiya edilmiş mənbələr vasitəsilə istehsal edilmiş xammal tərkibli yemlərlə yemləndirilməmiş heyvanların kəsimindən alınmalıdır.

İstifadəsi üzrə tövsiyə edilmiş müddətlərdən gec kəsimdən öncə yeridilmiş təbii və ya sintetik estrogenlərin, hormonal maddələrin, tireostatik preparatların, antibiotiklərin, pestisidlərin və digər medikamentoz vasitələrin təsirinə məruz qalmış heyvanların kəsimindən alınmış ət və ət məhsullarının Azərbaycan Respublikasına idxalına icazə verilmir.

İdxal edilən məhsullar insan qidası üçün istifadəyə yararlı olmalıdır. Məhsulun qablaşdırılmasının üzərində markalanması (baytarlıq möhürü) olmalıdır. Markalanmış etiket qablaşdırmanın üzərinə açma zamanı etiketin bütövlüyünün pozulmasının mümkün olmaması tərzdə yapışdırılmalıdır. Məhsullar BEB-in “A” siyahısında olan xəstəliklərdən, o cümlədən son 3 il ərzində donuzların Afrika taunu, son 12 ay ərzində iri buynuzlu heyvanların taunu və son 6 ay ərzində dabaq xəstəliyinə görə azad inzibati ərazilərdə yerləşmiş ət emalı müəssisələrindən və soyuducu anbarlardan olmalıdır.

Ətin mikrobioloji, kimyəvi, toksikoloji və radioloji göstəriciləri Azərbaycan Respublikasında qüvvədə olan baytarlıq və sanitariya tələblərinə cavab verməlidir.

İdxala qablaşdırılması zədələnməmiş hermetik cəhətdən qapalı tarada olan hazır məmulatlara icazə verilir. Tara və qablaşdırma materialı birdəfəlik istifadə üçün olmalı və gigiyenik tələblərə cavab verməlidir.

Nəqliyyat vasitələri ixracatçı ölkədə qəbul edilmiş qaydalara uyğun işlənilir və hazırlanır.

Hazırkı tələblərdə göstərilmiş şərtlərin yerinə yetirilməsi sertifikatlaşdıran baytar həkimi tərəfindən tam təsdiq olunmalı, ixracatçı ölkənin dövlət baytar həkimi tərəfindən imzalanmalı, ixracatçı ölkənin dilində və ingilis dilində tərtib olunmalıdır.

BEB-in “A” xəstəliklər siyahısına görə qeyri-sağlam ölkələrdən hazır ət məmulatlarının Azərbaycan Respublikasına idxalı yalnız idxalçı tərəfindən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyindən icazənin alınmasından sonra mümkündür.